


# Azərbaycan Xalq Cümhuriyyəti tariximizə qızıl hərflərlə yazılıb

***Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasından 107 il ötür. XX əsrin əvvəllərində Azərbaycan xalqı çoxəsrlik tarixində növbəti dəfə azadlıq, müstəqillik uğurunda mübarizəyə başlayaraq. 1918-ci il mayın 28-də Şərqdə ilk demokratik, hüquqi və dünyəvi respublika yaratdı. Yeni dünya nizamının formalaşdığı tarixi şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti müstəqil dövlət kimi varlığını sübut etdi. Cümhuriyyətin yaradılması həyatımıza və tariximizə əlamətdar hadisə kimi əbədi daxil oldu. Təəssüflər olsun ki, Şərqin ilk demokratik respublikası çox yaşaya bilmədi. 23 ay sonra süqut etsə də, AXC beynəlxalq hüququn subyekti kimi özünü təsbit etdi və xalqın milli mənlik şüurunun formalaşmasında mühüm rol oynadı.***

Azərbaycan Xalq Cümhuriyyəti bu qısa zaman içində əsrlərə bərabər işlərə imza atdı. Dövlətçilik təməlləri qoyuldu: parlament formalaşdı, hökumət quruldu, üçrəngli bayrağımız yüksəldi, milli ordu yaradıldı, ədalət sistemi quruldu, diplomatik əlaqələrin əsası qoyuldu. Bu addımlar sübut etdi ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz taleyinə sahib çıxmağa qadirdir!

1918-ci ildə dünyanın hələ demokratiya ilə yaxından tanış olmadığı bir vaxtda, Azərbaycan Xalq Cümhuriyyəti bütün vətəndaşlara bərabər hüquqlar verdi. Dinindən, irqindən, cinsindən asılı olmayaraq hər kəsə! Və qadınlara seçki hüququ verildi - Avropanın bir çox inkişaf etmiş ölkəsindən əvvəl! Bu, təkcə siyasi qərar deyildi, bu, xalqın yeniliyə, bərabərliyə, ədalətə inamının təcəssümü idi. Cümhuriyyət hökuməti təhsili milliləşdirməyi ən vacib vəzifələrdən biri sayırdı. Məhz bu baxışla Bakı Dövlət Universiteti təsis olundu - gələcəyin milli kadrlarını yetişdirmək, elmin çırağını alovlandırmaq üçün. Bu universitet bir millətin intellektual gələcəyinə atılan cəsarətli addım idi. Ədliyyə sahəsində isə atılan ilk addımlar - qəbul edilən əsasnamələr, yaradılan orqanlar bu gün qürurla sahib olduğumuz müasir hüquq sistemimizin bünövrəsini qoydu. Onlar hüquqi dövlətçiliyimizin ilk sətirlərini yazdılar, qanunun aliliyinə inam toxumlarını səpdilər.

Bəli, 23 ay az müddətdir. Amma bu 23 ayda qurulan dövlət, atılan addımlar, yaradılan dəyərlər - bir xalqın azadlıq, müstəqillik və ədalət uğrunda apardığı mübarizənin əbədi simvoluna çevrildi. AXC-nin izi tarixdədir, qürurumuzda və dövlətçiliyimizin əsasındadır.

Xalq Cümhuriyyəti çox böyük işlər gördü. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, habelə demokratik prinsiplərin təsbit edilməsində mühüm rol oynadı. 200-dən çox qanun qəbul olundu. Qadınlara səsvermə hüququ verən qanun qəbul edildi. Cümhuriyyətin beynəlxalq münasibətlər sistemində tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atıldı. Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Milli hökumət Paris Sülh Konfransında Azərbaycan Xalq Cümhuriyyətinin tanınması, habelə dünyanın aparıcı dövlətləri ilə diplomatik əlaqələrin yaradılmasını təmin etmək üçün böyük mücadilə apardı. İlk növbədə, Avropanın bir sıra ölkələrinə yeni bir dövlətin qurulması barədə rəsmi məlumat göndərildi. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.



Adını tarixə qızıl hərflərlə yazan Xalq Cümhuriyyəti xalqın milli mənlik şüurunu özünə qaytardı. Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini özündə birləşdirən Cümhuriyyətimiz ədliyyə orqanları və məhkəmələrin fəaliyyətini tənzimləyən bir sıra qərarlar qəbul etdi. 1991-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə istinad olunmuş və Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilmişdir. Ulu Öndər Heydər Əliyev hər zaman AXC-nin və onun qurucularının tariximizdəki roluna böyük dəyər verib. Çətin siyasi-iqtisadi dövrdə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edildi. Bununla da müstəqilliyə gedən yolun əsası qoyuldu. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi, islahatlar uğurla davam etdirilir. 2007-ci il 25 may tarixində Azərbaycanın paytaxtı Bakı şəhərinin İstiqlaliyyət küçəsində dövlət başçısının təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış İstiqlal Bəyannaməsi abidəsinin rəsmi açılış mərasimində dövlət başçısı iştirak etmişdir. Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi, həmçinin Cümhuriyyətin 100 illik yubileyinin keçirilməsi haqqında sərəncamları milli yaddaşın formalaşması prosesində mühüm əhəmiyyət kəsb etdi. 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi dövlətçilik ənənələrinə böyük dəyər verildiyinin sübutudur. Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli Qanunu ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı" təsis olundu. 2021-ci il 15 oktyabr tarixində "Müstəqillik günü haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Sözügedən Qanunla 28 May Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edildi.

Prezident İlham Əliyev Ali Baş Komandan və Prezident kimi həm Xalq Cümhuriyyətinin, həm də müasir Azərbaycan Respublikasının qurucularının başa çatdıra bilmədiyi missiyanı böyük şərəflə, cəsarətlə tamamladı: "Erməni terrorizminin bütün qurbanlarının qisasını döyüş meydanında aldıq. 2020-ci ildə uğurlu hərbi əməliyyatlar nəticəsində Azərbaycan ərazi bütövlüyünə qovuşdu, xalqımız dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanındı. Bu gün həm Xalq Cümhuriyyətinə, həm müasir Azərbaycan Respublikasına rəhbərlik etmiş babalarımızın, erməni terrorunun qurbanlarının ruhu şaddır".

**Tahir MİRKİŞİLİ,**
**Milli Məclisin deputatı.**

Respublika .- 2025.- 28 may (№110).- S.17.